


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (23.851)

11 noyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyəti adından Prezident İlham Əliyevi və Azərbaycan xalqını tarixi Zəfər Günü münasibətilə təbrik edib və ən xoş arzularını çatdırıb. Dövlətimizin başçısı təbrikə və xoş arzulara görə minnətdarlığını bildirib.

Görüşdə Vətən müharibəsində əldə etdiyimiz Qələbənin önəminə toxunularaq bunun bütün Türk dünyası tərəfindən böyük sevinc hissi ilə qarşılandığı bildirilib. Müharibənin ilk günlərindən Türkiyə dövlətinin, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın və türkiyəli parlamentarilərin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi olaraq vurğulanıb. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

* * *

Prezident İlham Əliyev noyabrın 10-da Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmeni qəbul edib.



## Türkiyə Prezidentinin müşavirləri Naxçıvan Dövlət Universitetində olublar





Türkiyə Prezidentinin baş müşaviri, professor Yekta Saraç, prezident müşavirləri İhsan Şənər, Ahmet Minder və İqdır Universitetinin rektoru, professor Məhmət Hakkı Alma Naxçıvan Dövlət Universitetində olublar. Ali təhsil ocağının Memarlıq və mühəndislik fakültəsində olan qonaqlar "Robotexnika" kabinəsində tələbələrin startapları ilə tanış olub, alternativ enerji mənbələri – külək və günəş panelləri haqqında ətraflı məlumat alıblar. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində müasir avadanlıqlarla zəngin olan laboratoriyaların iş prinsipi ilə tanış olan qonaqlar Pedaqoji fakültənin nəzdində tələbələrin təcrübi dərslərinin keçildiyi Toxuculuq və tikiş texnologiyası, Kulinariya kabinəsi, Metal və ağac emalı üzrə emalatxanasında olub, tələbələrin iş prosesini izləyiblər. Sonra qonaqlar müasir tədris bazası əsasında yenidən qurularaq tələbələrin istifadəsinə verilən Tibb fakültəsinə gəlib, mövcud laboratoriyaların fəaliyyət mexanizmi ilə tanış olublar. Universitetin Konservatoriyasında olan qonaqlar Xalq çalğı alətləri kafedrasının nəzdində fəaliyyət göstərən "Buta" instrumental ansamblının konsertini izləyib, Musiqi müəllimliyi ixtisası üzrə I kurs türkiyəli tələbə Furkan Tunanın sazda türkü ifasını dinləyiblər.

Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən ikitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonaqları salamlayaraq ali təhsil ocağının malik olduğu imkanlar, fakültələr, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələr haqqında geniş məlumat verib. Ali təhsil ocağında təhsil alan əcnəbi tələbələr sırasında türkiyəli tələbələrin üstünlük təşkil etməsini qeyd edən rektor bunun səbəbini dil, din birliyi, ortaq adət-ənənələrə sahib olmağımızla əlaqələndirib. Görüşdə Türkiyə universitetləri ilə bütün elm-təhsil sahələrində ortaq layihələr həyata keçirmək, konfranslar, simpoziumlar təşkil etmək, ortaq elmi araşdırmalar və nəşrlər aparmaq, elmi toplantılar təşkil etmək, tələbə-müəllim mübadiləsi həyata keçirmək məsələləri və birgə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Türkiyə Prezidentinin baş müşaviri, professor Yekta Saraç klassik və nümunəvi universitet modelini özündə əks etdirən ali təhsil ocağında aparılan genişmiqyaslı qurucuşluq prosesindən məmnunluğunu ifadə edib. Texnopark sahəsində Türkiyə universitetləri ilə qarşılıqlı əməkdaşlıq məsələlərinə toxunan baş müşavir Naxçıvan Dövlət Universitetində yeni yaradılacaq texnoparkın gələcəkdə bölgənin inkişafına müsbət mənada təsir göstərəcəyindən danışıb.

Görüşün sonunda Türkiyə Prezidentinin baş müşaviri universitetin xatirə kitabına ürək sözlərini yazıb, rektor milli ornamentlərlə zəngin Naxçıvan xalçasını qonağa hədiyyə edib.

Qeyd edək ki, Türkiyə Prezidentinin baş müşaviri professor Yekta Saraç 2014-2021-ci illərdə Türkiyə Ali Təhsil Şurasının rəhbəri vəzifəsində çalışıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk anılıb

Noyabrın 10-da Naxçıvan şəhərində ***"Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir"***, – deyən Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk vəfatının 83-cü ildönümündə anılıb. Türkiyənin Naxçıvandakı Baş Konsulluğu tərəfindən türk xalqının böyük öndərinin Naxçıvan şəhərində ucaldılan büstü ziyarət olunub, əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz tərəfindən büstün önünə əklil qoyulub.

Anım mərasimində Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri, türkiyəli iş adamları və qardaş ölkənin Naxçıvanda təhsil alan tələbələri abidə önünə gül dəstələri qoyaraq Mustafa Kamal Atatürkün xatirəsinə ehtiramlarını bildiriblər.

Anım tədbiri Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda davam etdirilib.

***Xəbərlər şöbəsi***

## Aqrar sahədə maarifləndirmə tədbirləri davam etdirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramlarında və verilmiş tapşırıqlarda qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində oktyabr ayında da işlərini davam etdirib. Nazirliyin əməkdaşları əkin sahələrində payız şumunun qaldırılması, payız taxıl əkinlərinin əkin atlaslarına uyğun keçirilməsi, rayonlaşdırılmış yüksək reproduksiyalı toxum materiallarından istifadə edərək şırım üsulu ilə əkinlərin aparılması və toxumların dərmanlanmasının əhəmiyyəti, əkinlərin keçirilməsində texnikaların gücündən səmərəli istifadə qaydaları haqqında torpaq mülkiyyətçiləri ilə maarifləndirici söhbətlər aparıblar. Həmçinin yağlı bitkilərin əkinlərinin genişləndirilməsi, torpaq mülkiyyətçilərinə əkdikləri əkin növlərinə görə subsidiyaların verilmə qaydaları, məhsul yığımından sonra meyvə və üzüm bağlarında xəstəlik və zərərvericilərə qarşı kimyəvi və bioloji mübarizə tədbirlərinin aparılması mövzularında müşavirələr keçirilib.

Babək Tingçilik Təsərrüfatının müraciəti əsasında təsərrüfat sahəsində olan tinglərə baxış olub və aşkar edilən zərərvericilərə qarşı aparılacaq mübarizə tədbirləri barədə tövsiyələr verilib. Cari ildə qarğıdalı biçinində iştirak etmiş kombaynların mülkiyyətçiləri və mexanizatorlarla fərdi qaydada söhbətlər aparılıb, texnika və texnoloji avadanlıqların saz vəziyyətə gətirilməsi diqqətdə saxlanılıb.

Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə zərərverici və xəstəliklərə qarşı mübarizə ilə bağlı 5 vətəndaş tərəfindən müraciət daxil olub, onlara müraciət etdikləri məsələlərlə bağlı lazımi tövsiyələr verilib. Naxçıvan Dövlət Texniki Kollecinin Aqrar (fermer) təsərrüfatlarının təşkili ixtisasında təhsil alan tələbələrə nazirliyin əməkdaşları tərəfindən aqrar sahənin inkişaf istiqamətləri mövzusunda mühazirə oxunub. Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Culfa rayonunun Dizə, Gal, Şurud kəndlərindən torpaq nümunələri götürülərək analiz olunmuşdur. Nəticələrə əsasən əkiləcək bitkilərin qida maddələrinə tələbatından və məhsuldarlığından asılı olaraq hər bitki üçün üzvi və mineral gübrələrin normaları müəyyənləşdirilərək qida maddələri ilə təminolunma kartoqramları Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunda hazırlanıb. Sort sınağı üçün əkilmiş 32 sort üzrə sınaq işləri başa çatıb, hesabatların dəqiqləşdirilməsi və hazırlanması üçün işlər görülür. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin tələbələri birliyin laboratoriyasında torpaqların analizinin aparılması qaydaları haqqında təcrübə məşğələləri keçiblər. Cari il oktyabrın 25-də Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Şərur dayaq məntəqəsinin inzibati binası yenidən qurularaq istifadəyə verilib.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri muxtar respublikanın rayonlarında olub, taxıl əkini ilə məşğul olan fermerlərlə taxıl əkinlərindən yüksəkkeyfiyyətli bol məhsul götürmək üçün sahələrin düzgün seçilməsinin, şum altına fosfor, kalium və üzvi gübrələrin verilməsinin, sürmə və başqa xəstəliklərin qarşısının alınması üçün dərmanlanmış, təmizliyi və cücərmə faizi yüksək olan laboratoriya şəraitində analizdən çıxmış reproduksiyalı toxum materialından istifadə edilməsinin əhəmiyyəti barədə görüşlər keçiriblər. İdarəyə əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət edən 35 torpaq mülkiyyətçisi və ailə təsərrüfatı sahiblərinə mütəxəssislər tərəfindən məsləhətlər verilib. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analiz edilərək nəticəsi haqqında akt onlara təqdim olunub.

Hesabat ayında baytarlıq tədbirlərinin vaxtında aparılması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasının əhəmiyyəti, ana malların süni mayalandırılması, yemləndirilməsi, qış otlaqlarından səmərəli istifadə olunması və qışlama dövründə mal-qaraya zoobaytar qaydalarına uyğun qulluq edilməsi ilə əlaqədar sahibkarlarla maarifləndirici görüşlər keçirilib, eyni zamanda mal-qaranın sığortalanmasının və aqrar sığortanın əhəmiyyəti, payız mövsümündə arıxanalarda baytarlıq tədbirlərinin aparılması və arıxanaların qışlamaya hazırlanması ilə bağlı sahibkarlarla fərdi qaydada maarifləndirici söhbətlər aparılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Məhəmməd Tağı Sidqiyə aid əlyazma nüsxələri görkəmli maarifçinin Ordubad şəhərindəki ev-muzeyinə təqdim olunub

*Noyabrın 10-da Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən Məhəmməd Tağı Sidqinin ev-muzeyinə görkəmli pedaqoqa aid əlyazma nüsxələri təqdim olunub.*



Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə Məhəmməd Tağı Sidqiyə aid sənədlərin sürətlərinin çıxarılması və görkəmli maarifçinin Ordubad şəhərindəki ev-muzeyinə təqdim olunması barədə Azərbaycan Milli



Elmlər Akademiyasına müraciət edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə görkəmli maarifçi Məhəmməd Tağı Sidqiyə və oğlu Məhəmmədli Sidqiyə aid olan, akademiyanın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan sənədlər araşdırılmış, onların hər birinin sürəti elektron və çap variantında hazırlanaraq muxtar respublikaya gətirilmişdir. Bu gün Məhəmməd Tağı Sidqinin Ordubad şəhərindəki ev-muzeyinə görkəmli maarifçinin və oğlu Məhəmmədəli Sidqinin həyat və yaradıcılığı ilə bağlı 46 qovluqdan ibarət 232 çap sənədi, eləcə də elektron qaydada 237 qovluqdan ibarət sənədlər təqdim olunur.

Ülvi Hüseynli bütün bunlara görə akademik İsa Həbibbəyli və bu işdə əməyi keçən hər kəsə Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin Azərbaycan təhsili, ədəbiyyatı, teatrı və mətbuatı sahəsindəki mühüm xidmətləri nəzərə alınaraq 2004-cü ildə 150 illik yubileyi geniş qeyd olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 20 avqust tarixli və "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli sərəncamları da görkəmli pedaqoqun yaradıcılığına, onun pedaqoji fəaliyyətinə verilən qiymət kimi yüksək dəyərə malikdir. 2014-cü ildə muxtar respublikada Sidqinin 160 illik yubileyi qeyd olunmuş, təhsil və mədəniyyət müəssisələrində maarifçi-şairin həyat və yaradıcılığını əks etdirən guşələr yaradılmış, tədbirlər keçirilmişdir. 2015-ci ildə Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığının öyrənilməsi və təbliği məqsədilə görkəmli pedaqoqun Ordubad şəhərində ev-muzeyi istifadəyə verilmişdir. Bu gün təqdim olunan yeni sənədlərlə muzey fondu daha da zənginləşəcək, buradakı eksponatlar Sidqi yaradıcılığını tədqiq edənlər üçün dəyərli elmi mənbələrə çevriləcəkdir.

Təqdimat mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək deyib ki, muxtar respublikada dövlətçilik konsepsiyasının tərkib hissəsi kimi muzey siyasətinin həyata keçirilməsinin, bu mədəniyyət ocaqlarının genişləndirilməsinin, inkişaf etdirilməsinin böyük ictimai-siyasi, elmi-mədəni və tarixi əhəmiyyəti vardır. Görkəmli şəxsiyyətlərin adını daşıyan, eləcə də tarix-diyarşünaslıq muzeylərinin yaradılması, həmin müəssisələrin daim eksponatlarla zənginləşdirilməsi Azərbaycançılıq ideologiyasının təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, müstəqillik illərində Naxçıvanda ölkəmizdə ilk dəfə virtual muzeylərin yaradılması, yeni tipli muzey şəbəkələrinin qurulması, rəqəmsallaşdırılması, muzeylərlə təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsi, açıq dərslərin keçilməsi, muzeylərə kollektiv gedişin təmin olunması reallaşdırılan uzaqgörən siyasətin bəhrələridir. Məhz Məhəmməd Tağı Sidqinin ev-muzeyinin də nadir eksponatlarla zənginləşdirilməsi istiqamətində qarşıya qoyulan tapşırıqların icrası, əlyazmaların təqdimatı, ümumilikdə, ölkə səviyyəsində əlamətdar hadisə olmaqla yanaşı, Azərbaycanşünaslığa böyük töhfədir.

İsa Həbibbəyli qeyd edib ki, ölkəmizdə muzeylər, əsasən, funksiyalarına uyğun olaraq ədəbiyyat və mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərir, yalnız 3 muzey elmi-tədqiqat xarakteri daşıyır. Bu gün Ali Məclis Sədrinin təşəbbüsü ilə görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi və onun oğlu, böyük publisist, mətbuat xadimi Məhəmmədəli Sidqiyə aid arxiv sənədlərinin tam halda bu muzeyə hədiyyə olunması ilə Naxçıvan Muxtar Respublikasında ilk elmi-tədqiqat muzeyi fəaliyyətə başlayır. Bununla həm böyük elmi əhəmiyyətə malik, həm də əsl ədəbiyyat ocağı olan ilk muzeyin əsası qoyulur. Təqdim olunan mühüm, zəngin arxiv sənədləri, eyni zamanda mədəniyyət siyasətinin elmi əsaslarla həyata keçirilməsinə böyük təkan verəcək.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirib. O, Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm xidmətlər göstərən görkəmli maarifçi və yaradıcı şəxsiyyət idi. 49 il ömür sürən görkəmli təhsil və mədəniyyət xadimi Ordubadda anadilli "Ulduz" məktəbinin açılmasına nail olub və bu məktəb ona böyük şöhrət gətirib. Azərbaycan romantik dramaturgiyasının banisi Hüseyn Cavid, tarixi roman janrının banisi Məmməd Səid Ordubadi, realist rəssamlığın banisi Bəhruz Kəngərli və digərləri Məhəmməd Tağı Sidqinin təsis etdiyi "Ulduz" və "Tərbiyə" məktəblərinin yetirmələridirlər. Maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin yubileylərinin müxtəlif elmi-mədəni tədbirlərlə geniş şəkildə qeyd edilməsini, görkəmli pedaqoqun yaratdığı əsərlərin nəşrini, adına muzeyin yaradılmasını, eləcə də bu gün əlyazmalarının təqdimatının keçirilməsini dövlətimiz tərəfindən ziyalılığa verilən yüksək qiymət kimi dəyərləndirən akademik İsmayıl Hacıyev muxtar respublikanın elm ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli çıxında bildirib ki, gələcək nəsillərin, ümumilikdə isə xalqın mədəni inkişafına töhfə verən insanlar daim öz əməlləri ilə tarixdə qalır, bütün dövrlərdə yaşayırlar. Əlyazmalarının təqdimatı keçirilən Məhəmməd Tağı Sidqi də belə ziyalılarımızdandır. Görkəmli pedaqoqun və oğlunun əlyazmalarının bu gün öz doğma yurdunda, ocağında yerləşən ev-muzeyinə təqdim olunması görkəmli şəxsiyyətin irsinə həssas münasibətin, dəyərin ifadəsidir.

Sonra tədbir iştirakçıları ev-muzeyinə təqdim olunan görkəmli pedaqoq Məhəmməd Tağı Sidqiyə aid yeni əlyazma nüsxələri və muzey ekspozisiyası ilə tanış olublar.

**"Şərq qapısı"**

## "Cavidşünaslıq" çoxcildliyi Hüseyn Cavidin ev-muzeyinə təqdim edilib

*Noyabrın 10-da Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyində "Cavidşünaslıq" çoxcildliyinin təqdimatı olmuşdur.*



Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək bildirib ki, belə bir tədbirin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə bu qədim diyarda elmə, təhsilə, mədəniyyətə göstərilən böyük dövlət qayğısının nəticəsi



kimi baxmaq mümkündür. Digər tərəfdən bu təqdimat Hüseyn Cavid irsinin öyrənilməsində, cavidşünaslıqda mühüm araşdırmaların aparılmasında yeni mərhələnin başlanğıcı sayıla bilər. Qeyd edilib ki, bu çoxcildliyin əmələ gəlməsində Hüseyn Cavidin ev-muzeyinin direktoru Gülbəniz Babaxanlının və muzeyin kollektivinin böyük əməyi olub. Təqdim olunan çoxcildlik müasir dövrün cavidşünasları üçün qiymətli xəzinədir. Məhz bu toplu ilə müstəqil dövlətçilik idealları işığında Hüseyn Cavidi yenidən öyrənmək mümkündür.

Vurğulanıb ki, çoxcildliyin ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında təqdim olunması da mühüm əhəmiyyət daşıyır. Bunun bir səbəbi Hüseyn Cavidin Naxçıvanda doğulması ilə əlaqədardısa, digər səbəbi muxtar respublikada elmə, təhsilə, mədəniyyətə, ədəbiyyata, muzey işinə verilən böyük dəyərlə bağlıdır.

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirib ki, Hüseyn Cavid irsinin öyrənilməsi və yaşadılması, gənclərin Azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyəsi baxımından xüsusi əhəmiyyət daşıyır. Xalqımızın bir çox klassik sənətkarları kimi Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin də əsl qiymətini ümummilli liderimiz Heydər Əliyev vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlarla görkəmli ədibin 2007-ci ildə 125, 2012-ci ildə isə 130 illik yubileyləri geniş şəkildə qeyd edilib. Bununla yanaşı, dahi şairin həyat və yaradıcılığına həsr olunan simpozium və konfranslar keçirilib, sərgilər təşkil olunub. Görkəmli mütəfəkkirin adının əbədiləşdirilməsi məqsədilə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb Hüseyn Cavidin adını daşıyır. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən hər il oktyabrın 24-ü muxtar respublikada Hüseyn Cavid Poeziya Günü kimi qeyd olunur. Bu artıq ənənə halını alıb, görkəmli ədibin zəngin və möhtəşəm yaradıcılığını ədəbi-nəzəri fikri diqqət mərkəzinə çəkməklə əsl poeziya bayramına çevrilib, Hüseyn Cavid bədii irsinin öyrənilməsinə, eləcə də gənclər arasında təbliğinə geniş imkan açıb.

Hüseyn Cavidin ev-muzeyinin direktoru və kitabın müəllifi Gülbəniz Babaxanlı bildirib ki, bu çoxcildliyin hazırlanmasına 20 il bundan əvvəl başlayıb. Hüseyn Cavidin ev-muzeyində işləməyə başlayandan sonra burada böyük Cavidlə bağlı daha çox materiallarla rastlaşıb. Araşdırmalar daha əvvələ – 1912-ci ildə Hüseyn Cavid haqqında yazılmış ilk məqaləyə aparıb çıxarıb. Sonra isə digər arxiv və kitabxanalarda araşdırmalara başlanılıb və 1912-ci ildən 2017-ci ilədək Cavidlə bağlı mətbuatda dərc olunmuş bütün materialları bir yerə toplanılıb. Qeyd edilib ki, çoxcildlikdə Hüseyn Cavidin şəxsi məsələlərindən tutmuş elm sahələrinə aid çoxsaylı məqalələri var. Böyük ədibin teatrşünaslıq, mətnşünaslıq, tarixşünaslıq, fəlsəfə və digər sahələrə aid məqalələrinin olması təsdiq edir ki, bu kitablar təkcə ədəbiyyatşünaslar deyil, digər elm sahələrində çalışanlar üçün də qiymətli mənbə rolunu oynaya bilər.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli qeyd edib ki, tarixən bizim şair və yazıçılarımız öz əsərlərində dövlətin, dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasını, azad, müstəqil cəmiyyət arzusunu dilə gətirib, bunu ədəbiyyatın dili ilə insanlara çatdırıblar. Sevindirici haldır ki, bu gün biz həmin güclü dövləti olan azad, müstəqil cəmiyyətdə yaşayırıq. Bu gün dövlətimiz tərəfindən elmə, mədəniyyətə, ədəbiyyata böyük qayğı göstərilir və bunun da nəticəsində bu kimi əsərlər çap olunur.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar bildirib ki, 30 cilddən ibarət "Cavidşünaslıq" əsərinin bu gün ilk dəfə olaraq Naxçıvanda təqdimatı bizim üçün qürurvericidir. Digər tərəfdən bu kitab Naxçıvana sevginin bəhrəsidir. Hamımıza məlumdur ki, bu kitabda naxçıvanlı müəlliflərin məqalələri daha çox yer alıb. Məmmədcəfər Cəfərov, Kamran Əliyev, Cəlal Qasımov, Lütviyyə Əsgərzadə, digər tərəfdən hazırda AMEA Naxçıvan Bölməsində çalışan bir çox əməkdaşın Hüseyn Cavid haqqında məqalələri bir daha onu göstərir ki, Naxçıvanda Hüseyn Cavid irsinə sevgi, məhəbbət böyükdür.

Çıxış edənlər yaradılmış şəraitə görə minnətdarlıqlarını bildirib, "Cavidşünaslıq" çoxcildliyinin nəşrinin Cavidsevərlər üçün böyük hədiyyə olduğunu qeyd ediblər.

Sonra Hüseyn Cavidin ev-muzeyi və məqbərəsi ziyarət olunub.

**"Şərq qapısı"**

## Şəhid ailələri, qazilər və aztəminatlı ailələr üçün tibbi aksiya keçirilib



Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirir. Bu dəfə 5 günlük tibbi aksiya ilə 1-2 noyabr tarixlərində Vətən müharibəsi şəhidlərinin ailə üzvlərini, qazilərimizi evində müayinə etmək üçün mərkəzin 15 müxtəlifixtisaslı həkim və 1 tibb bacısı heyəti Şərur rayonunda olub. Evlərdə 19 nəfər, Şərur Rayon Mərkəzi Xəstəxanasında 158 nəfər laborator-diaqnostik müayinələrdən, terapevtik, cərrahi, endokrinoloji, kardioloji, nevroloji və digər tibbi xidmətlərdən yararlanıb.

Şərur Rayon Mərkəzi Xəstəxanasında icrası mümkün olmayan digər müayinələr üçün xəstələr Diaqnostika Müalicə Mərkəzinə yönləndirilib. Şərur rayonundakı aksiyanın sonunda mərkəzin kollektivi Şərur şəhərindəki Şəhidlər xiyabanına gələrək şəhidlərimizin xatirəsini yad edib.

3,4,5 noyabr tarixlərində Naxçıvan Diaqnostika Müalicə Mərkəzində baş tutmuş aksiyada şəhid ailələri, Vətən müharibəsi qaziləri və ailə üzvləri, aztəminatlı ailələrə 1580 sayda terapevtik-diaqnostik və cərrahi xidmətlər göstərilmişdir. Bununla yanaşı, 1 nəfərdə xolesistektomiya əməliyyatı, 6 nəfərdə fimoz ( sünnət) əməliyyatı,1 nəfərdə koronar angioqrafiya icra olunmuşdur.

**Xəbərlər şöbəsi**

“Şərq qapısı” – 100

## “Şərq qapısı” qəzetinin ilk yubiley nömrəsi



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı qədim diyarın ilk mətbuat orqanının öyrənilməsində tədqiqatçılar üçün yeni mərhələ açmışdır. Bunu nəzərə alaraq məqalədə qəzetin ilk yubiley nömrəsi haqqında bəhs etmək istəyirik.***

100 illik inkişaf yolu keçən “Şərq qapısı” qəzetinin indiyədək bir çox yubiley nömrələri çap olunmuşdur. Qəzetin ilk yubiley nömrəsi onun 100-cü sayının işıq üzü görməsinə həsr edilmişdir. 100-cü nömrənin çap olunması üçün əvvəlcədən ciddi hazırlıq işləri aparılmışdır. Bu münasibətlə qəzetdə bir neçə dəfə elanlar verilmişdir. 1925-ci ilin fevral ayında çıxan 16-cı və 18-ci nömrələrində dərc olunan elanda yazılırdı: “İdarədən. İş bu sənə mart ayının 23-də “Şərq qapısı” qəzetinin 100-cü nömrəsi tamam olduğu üçün xüsusi olaraq yubiley nömrəsi çıxacaqdır. Bina əleyhə əskidə və hazırda qəzetəmizdə iştirak edən müxbir və yazıçılarımızın xatirat və qəzetəmiz haqqında başqa məktub və məqalələrini gözlüyoruz. Materiallar mart ayının 18-nə qədər qəbul olunacaqdır”.

Qəzetin 100-cü nömrəsi elanda göstərildiyi kimi martın 23-də yox, 31-də işıq üzü görmüşdür. Bu nömrədə Məhəmməd Rasizadə, Xəlil Fikirli, Lətif Hüseynzadə, Nemət Bəsir, Əvəz Sadıq, Lətif Helmi, Ələkbər Quliyev, Həmid Sultanov, Məhəmməd Qazızadə, Əli Əsgərovun dərc olunan “Yüz nömrə”, “Şərq qapısı” yüksəldikcə”, “Şərq qapısı” qəzetəsinin 100-cü nömrəsi münasibətilə”, “Naxçıvan və mətbuat”, “Tarixi bir gün”, “Böyük səadət”, “Müvəffəqiyyət”, “Qəzetə nə deməkdir”, “Təbrikə layiq bir gün”, “Şərq qapısı” və gənclər”, “Qəzetəmizin 100-cü nömrəsinə ithaf” kimi məqalə, şeir, xatirə və təbriklərdə “Şərq qapısı”nın yaranması və dörd ilə yaxın bir müddətdə keçdiyi inkişaf yolu haqqında çox dəyərli məlumatlar vardır.

Yubiley nömrəsində “Şərq qapısı” yaranandan bəri onun nəşrində fəal iştirak edən müxbir, jurnalist, dövlət nümayəndələri və texniki işçilərin fotoşəkillərinin verilməsi həmin illərdə qəzetin təşəkkülü və inkişaf yolu haqqında geniş təsəvvür yaradır.

Fotoşəkillər belə qruplaşdırılmışdı: Qəzetin rəhbərləri Əhməd Haşımov, Həmid Sultanov, müdiri-məsul və onun müavini Həmid Mahmudov, Abbas Gülməmmədov, katib Məhəmmədov, daimi yazarlar Məhəmməd Ənnağıyev, Əli Həsənzadə, Fərəməz Mahmudbəyov, Hacı Dadaşov, Məhəmməd Rasizadə, Abbasqulu Əlyarov, Əlisəttar Qılmanov, qadın müxbirlər Rübaba Sadıqova, Anna Xarlamova, İrəvanda qəzetin yayılmasında çalışan Əkbər Rzayev, kəndli müxbirlər Bağır Əsgərov, Həsən Abbasov, Əhməd Səfərzadə, İbadulla Axundov, Tağı Camalov, Əliqulu Cəfərov, Ramazan Əliyev, gənc müxbirlər Nemət Novruzov, Məhəmməd Qazızadə, Lətif Helmi, Ağabala Axundov, Xəlil Fikirli, Məhəmməd ağa Axundov; mətbəədə iş zamanı; mətbəədə qəzet hazır edilərkən.

“Şərq qapısı”nın 100-cü nömrəsinin çıxması münasibətilə yazdığı “Müvəffəqiyyət” adlı məqaləsində Ə.Sadıq qəzetin qazandığı uğurlardan söz açır və bu uğurları qoruyub artırmaq üçün vətəndaşların köməyinə ümidvar olduğunu bildirirdi: “Yüz nömrədə qəzetimiz müxtəlif şəkillərdə olaraq birisi o birisindən daha islah edilmiş, daha müntəzəm bir surətlə çıxacağına olan ümidini indidən təmin ediyor. Gözlənilən ümidi əldən qaçırmamaq üçün ölkəmizin bütün vətəndaşlarının var qüvvələri ilə çalışmaqları lazımdır”.

“Şərq qapısı” qəzetinin 100-cü nömrəsi həmin qəzetin nəşri tarixini öyrənmək üçün ən etibarlı ilk mənbədir.

**Fərman XƏLİLOV**
***AMEA Naxçıvan Bölməsi***
***Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru***

## Şəhid ailələri dövlətimizin qayğısı ilə əhatə edilib



Azərbaycanda həyata keçirilən sosial siyasət ölkənin hər bir vətəndaşını əhatə edir. Dövlətimizin başçısının müvafiq Sərəncam və fərmanları ölkə ictimaiyyəti, o cümlədən müharibə veteranları, şəhid ailələri, müharibədə sağlamlıqlarını itirənlər tərəfindən də yüksək qiymətləndirilir, insan amilinə yüksək qayğı kimi dəyərləndirilir. Bu baxımdan ölkəmizin ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanda da insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Vətən müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi, tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. Təkcə 2021-ci ilin ötən dövründə müvafiq kateqoriyalı 23 şəhid ailəsinə mənzilin, müharibə zamanı sağlamlığını itirmiş 18 şəxsə isə avtomobilin təqdim edilməsi muxtar respublikada bu qəbildən olan insanların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu təsdiq edir. Bu isə gənc nəsli Vətənin müdafiəsində daim səfərbər olmağa ruhlandırır. Aparılan dövlət siyasəti, eyni zamanda hər bir vətəndaşa da müharibə veteranlarına dərin ehtiram bəsləməyi, qayğı göstərməyi, onlardan vətənpərvərlik ruhunu əxz etməyi aşılayır. Yaxın günlərdə bu qəbildən olan 9 ailə yeni mənzilin sevincini yaşayıb. Belə ki, noyabrın 5-də – Zəfər Günü ərəfəsində 8 şəhid ailəsinə və 1 qaziyə mənzil, sağlamlıqları məhdudlaşmış 13 şəxsə isə avtomobil təqdim olunmuşdur. Onlardan biri də şəhid Ərtoğrul Nadirlinin ailəsidir. Bu günlərdə həmin mənzildə ailə ilə həmsöhbət olduq.



Hümbət Rzayev deyir:

– Muxtar respublika rəhbərinin qayğısı və diqqəti bir atanın öz övladına verdiyi dəyər idi. Heydərabad qəsəbəsində üçotaqlı bir mənzillə təmin olunmağım ailəmi, əzizlərimi sevindirməklə bərabər, dövlətimizin hər an öz vətəndaşının yanında olduğundan xəbər verir. Rahat, hər cür şəraiti olan bu gözəl mənzilin sahibi olmağın həddsiz sevincini yaşayırıq. Bütün bunlar sabaha inamımızı daha da artırıb. Bu mənzil bizim üçün əsl bayram hədiyyəsidir. Ali Məclis Sədrinin də qeyd etdiyi kimi, mənzil təminatı hər bir insanın rahat yaşayışı və əsas qayğılarının həll olunması deməkdir.

Muxtar respublikada bu istiqamətdə aparılan məqsədyönlü tədbirlər bir daha sübut edir ki, insan amili, müstəqilliyimiz, Vətən torpaqlarının işğaldan azad olunması uğrunda şücaət göstərərək döyüşənlərə, şəhidlərimizə qayğı dövlət siyasətinin əsasını təşkil edir. Belə böyük qayğı üçün Ali Məclisin Sədri cənab Vasif Talıbova ailəm adından minnətdarlığımı bildirirəm.

Şəhid anası Nahidə xanım deyir ki, oğlu Ərtoğrul Vətən müharibəsində Murovdağ yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Həmin gündən bu günə kimi dövlətimizin qayğısını hər an hiss etmişik. Düzdür, heç bir hədiyyə övladın əvəzini verə bilməz, amma bütün bunlar bizim üçün böyük təsəllidir.

“Prezidentimiz öz fəaliyyəti ilə həmişə sübut edib ki, O, hər bir azərbaycanlının Prezidentidir. Dövlət başçımız bütün vətəndaşlara qayğı göstərir, onların problemlərinin həlli istiqamətində ardıcıl işlər görür, – deyən şəhid qardaşı Cavid onu da qeyd edir ki, bu gün muxtar respublikada cəmiyyətin hər bir üzvü qayğı ilə əhatə olunur. İstər yaşlı, istər gənc bu qayğıdan yetərincə bəhrələnir. Hər an Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin əmrlərini icra etməyə, onun tapşırığı ilə Vətənimizin azadlığının və bütövlüyünün qorunması üçün sipər olmağa hazırıq.

Yeni mənzilində qonağı olduğumuz şəhid ailəsinin evində gördüklərimiz və onlardan dinlədiklərimizdən belə qənaətə gəlirik ki, Vətən yolunda canından, sağlamlığından keçən hər bir vətəndaş dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub.

**✍ Ramiyyə ƏKBƏROVA**

*Yunan əfsanələrinin birində qeyd olunur ki, Prometey odu tanrılardan oğurlayaraq insanlara gətirir. Bunu bilən tanrılar qəzəblənir və Prometeyi cəzalandırmaq məqsədilə onu Qafqaz dağlarının zirvəsində zəncirləməyi tapşırırlar. Burada qartal onun qaraciyərini hər gün didib yeyərmiş. Hər dəfə onun didilmiş qaraciyəri yenidən sağalarmış. (Əfsanədəki bu məqam bugünkü elm tərəfindən də sübut olunub – qaraciyər insanda özünü bərpa edən yeganə orqandır). Beləliklə, Prometey otuz il ərzində əzab çəkərək qaraciyərini qartala yedirtmişdir. İnsanlar əbədi işığa qovuşmuşdu, amma Prometey bunun cəzasını ağır ödəmişdi. Bu əfsanəni səbəbsiz xatırlamadım. Qafqazda yerləşən Azərbaycan da bir dövlət olaraq dəfələrlə parçalanmış, istilaya məruz qalmış, işğal edilmiş və hər dəfəsində də gücünü toplayaraq ayağa durmağı bacarmışdır. Azərbaycan xalqı bütün tarixi dönəmlərdə müstəqillik uğrunda daim mübarizə aparmış, bu istəyindən bir an olsun belə, geri çəkilməmişdir.*

*Estafet*

## Dünyaya Zəfər Günəşi kimi doğan Azərbaycan



Vətənimizin parçalanması tarixi XIX əsrin əvvəllərində Rusiya və İran arasında gedən müharibədən başlayır. Məhz bu müharibə Azərbaycanı ikiyə parçalayan Gülüstan və Türkmənçay müqavilələrinin imzalanmasına gətirib çıxardı. Adətən, sülh müqavilələri bir daha qan tökülməsin deyə, bağlanılır. Amma həmin müqavilələr Azərbaycanı elə amansızlıqla parçaladı ki, onun kəsdiyi yerdən hələ də qan axır. Bu müqavilədən sonra isə tək sevinən ermənilər oldu. Çünki Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqları hesabına Ermənistan dövləti yaradıldı. Türkmənçay müqaviləsindən əvvəl ermənilər sərgərdan bir toplum olublar. Buna görə də tarixçilər erməniləri “Türkmənçayın övladları” adlandırırlar. Yaşanan tarixi ədalətsizliyə baxmayaraq, Azərbaycan yenə ayaqda durdu və öz müstəqillik mübarizəsinə davam etdi. Nəhayət, XX əsrin əvvəllərində Azərbaycan xalqının çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda müsəlman Şərqinin ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Müstəqillik əldə edən Azərbaycan odu əldə edərək insanlara bəxş edən Prometey kimi, bəlkə də, ondan da artıq sevincli idi. Çünki azadlıq var olmaqdır, yaşamaqdır, yaşatmaqdır. Təəssüf ki, o zaman bu sevincimiz cəmi 23 ay davam etdi. Azərbaycan yenidən bolşevik rusların əsarəti altına düşdü. Prometey kimi, o da cəzalandırıldı. Amma onun cəzası 30 il yox, 70 il davam etdi. Bu illər ərzində xalqımızı öz dilindən, milli-mənəvi dəyərlərindən ayırmaq istəyənlərin millətimizə yaşatdıqları bütün çətinliklərə, zülmlərə baxmayaraq, Azərbaycan daim ayaqda durdu. Qolumuza vurulan 70 illik zəncirin ilk halqası 1990-cı ilin noyabr ayının 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda qaldırılan üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağının dalğası ilə qırıldı. 1991-ci ilin oktyabrın 18-də isə müstəqilliyimiz yenidən bərpa edildi. Bu dəfə onu buxovlayan zəncirləri tamamilə qıran xalqımız min bir çətinliklə yenidən öz müstəqilliyinə qovuşdu.

Azərbaycanın dünyaya bir Günəş kimi doğacağından qorxanlar yenə də boş durmadılar. “Türkmənçayın övladları”nın arxasında dayanan qüvvələr bu dəfə də Qarabağımıza göz dikdilər. Yenicə müstəqillik əldə edən və hələ ordusu formalaşmamış bir ölkəyə gözdağı vermək üçün Qarabağı işğal etməklə qalmayıb insanlıq tarixində misligörülməmiş cinayətlər törətdilər. Odlar yurdu düz 30 il bu nifrət alovuyla alışdı, amma kül olmadı, qığılcım alıb yenidən doğdu. Nəhayət, ordumuz illərin qisasını alaraq 2020-ci ilin sentyabr ayında başlanan müharibədə düşməni ona bəslədiyi nifrət alovuyla yandırıb külə döndərdi. Azərbaycan oğullarının odlu nəfəsindən çıxan bu yanğın düşməni öldürdükcə Qarabağa can gəlirdi. İşğalçıdan təmizlənən ana yurd gül-çiçək açaraq payız fəslində azadlığın xoşətirli baharını yaşadı. Vətən torpağı igidlərimizin qanı ilə sulandıqca müqəddəslik qazandı, and yerimizə çevrildi. Qarabağına qovuşduqdan sonra artıq Azərbaycanda bütün fəsillər dirçəlişi xatırladan yaz fəsli kimidir. Azərbaycanın işğal olunan torpaqlarında açan azadlıq çiçəkləri bütün dünyanı heyrətə saldı. Çünki biz təkcə zəfər qazanmadıq, biz arxamızda dünyanın öyrənə biləcəyi çox izlər buraxdıq.

Birillik zəfər tariximizdə Şuşa dastanının ayrı bir yeri vardır. Sıldırım qayalara dırmanan Vətən oğulları öz yarına qovuşmaq üçün qayaları yaran Fərhaddan daha güclü və cəsarətli idilər. Onların da mübarizəsinin təməlində arzusuna çatmaq, Vətən sevgisinə qovuşmaq vardı. Onların “yarı” əzəmətini dağlardan alan, vüqarı və qüruru ilə gözoxşayan Şuşa idi. O Şuşa ki igid oğullarımızın onu fəth etməsi ilə düşməni birdəfəlik diz çökdürdü, hərbi kapitulyasiya aktını imzalamağa məcbur etdi.

O Şuşa ki özündə tariximizin minillik izlərini yaşadır. O Şuşa ki Cabbar Qaryağdıoğlunun, Xan Şuşinskinin səsini, dahi Üzeyirin musiqisini illərdir, qoynunda saxlayır. Mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə böyük tarixi şəxsiyyətlər bəxş edərək muğamımızın beşiyinə çevrilib. O Şuşa ki adında özü boyda tarixi yaşadır. Onun uğrunda qayalara dırmanan igidlərimiz topun, tüfəngin qarşısına sinə-bıçaqla çıxdılar. Dünya bu sevda qarşısında heyrətdən dondu, dili tutuldu. Çünki burada haqqı, ədaləti bərpa edən igidlərimiz, eyni zamanda bir məhəbbət dastanı yazdılar. Elə bir dastan ki bundan sonra da dünya tarixində dillərdən düşməyəcəkdir. Bu savaşda insanlıq tarixində cəsarətin, gücün, ağlın, yenilməzliyin simvoluna çevrilən Prometeyin ruhu da Azərbaycan igidlərinin qarşısında baş əydi. Öz dözümlülüyü, mübarizliyi, qorxmazlığı, cəsarəti, igidliyi ilə yenilməzlik simvoluna çevrilən xalqımız oddan-atəşdən qorxmayan Simurq quşu kimi dəfələrlə atəşə atılsa da, yanmadı, sönən odun külü içərisindən dirilib çıxdı. Artıq Azərbaycan bayrağı bir qartala dönüb Qafqaz dağlarının ən yüksək zirvəsində qanad çalır.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# Bu günümüz üçün sizə borcluyuq



*27 sentyabr 2020-ci il... Ordumuzun əks-hücum əməliyyatlarına başladığı gün el bir oldu, həqiqətən də, dağ oynatdı yerindən. 30 il müddətində yağı tapdağında qalan torpaqlarımız 44 gündə azad edildi. Bu yolda kimisi canını fəda edib şəhidlik məqamına yüksəldi, kimisi də sağlamlığını itirərək qazi kimi öz evinə qayıtdı. Qazi kimdir? Qazi bir Qəhrəmandır! Qazi canını və gəncliyini dövləti, Vətəni, xalqı yolunda özünü fəda etmək üçün od-alov meydanına heç bir qarşılıq gözləmədən atılandır.*

Biz də Zəfər bayramımızın ilk ilini qeyd etdiyimiz bu günlərdə bir neçə qazi ilə görüşüb, həmsöhbət olduq. Onlardan leytenant ***Rauf Əbdürrəhimov*** həmin günləri həm kədər, həm də böyük qürur hissi ilə xatırlayır. Əslən Şəki rayonundan olan Rauf ilk xidmətinə Əlahiddə Ümumqoşun Ordudan başlayıb. Deyir ki, istər orta məktəbdə, istər hərbi liseydə, istərsə də Ali Hərbi Akademiyada ilk dərsimiz vətənpərvərlik mövzusunda olub. Biz erməni vəhşilikləri haqqında oxuyaraq, düşmənə nifrət hissi ilə böyümüşük. Uzun zaman idi ki, gözlədiyimiz əmr gəlmişdi. Ali Baş Komandanın əks-hücum əmrindən sonra yerimizdə dayana bilmirdik. Düşünürdük ki, görəsən, biz nə zaman döyüşlərə qatılacağıq. Nəhayət ki, oktyabrın 11-i biz də Qarabağa yollandıq. Vallah, inanın, hər birimiz elə böyük sevinclə yola düşdük ki, sanki müharibəyə yox, hansısa bayrama gedirdik. Elə ilk günlərdən Naxçıvanın xüsusi təyinatlıları döyüşlərdə şücaətlərini göstərdilər. Füzuli, Xocavənd, Şuşa kimi istiqamətlərin azad olunmasında iştirak etdik. Mənim üçün müharibənin ən ağır anı isə mənə və mənim kimi yüzlərlə hərbi qulluqçuya vətənpərvərlik dərsi keçən polkovnik-leytenant Qərib Baxşəliyevin və komandirimiz, polkovnik-leytenant Anar Əliyevin şəhid olması idi. Düzdür, kədərlənsək də, ondan sonra, sanki daha da əzm, iradə ilə döyüşərək həm komandirimizin, həm də digər şəhid qardaşlarımızın qisasını almağa başladıq. Hər şəhid olan yoldaşımız bizi daha da irəli istiqamətləndirirdi. Ya şəhid olmalı idik, ya da qalib qayıtmalıydıq. Gedən döyüşlər bizə bir daha düşmənin necə qorxaq olduğunu göstərirdi. Çünki onlar bizimlə üz-üzə döyüşə girməyə cəsarət edə bilmirdilər. Ağır artilleriyadan atəşə tuturdular. Üzbəüz gəldikdə isə silahlarını qoyub qaçırdılar. Qənimət götürdüyümüz düşmən maşınlarını, silahlarını onların özlərinə qarşı istifadə edirdik. Düzdür, şəhidlərimiz çox oldu. Lakin bütöv Azərbaycan uğrunda, illər öncə tapdanmış qürurumuz üçün can verməyə hər zaman hazır idik. Biz haqq savaşında idik. Və qalib olmağımızı şərtləndirən əsas amillərdən biri də bu idi. Bu gün "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallarını fəxrlə daşıyıram. Nəinki şəhid ailələri, qazilərimiz, ümumiyyətlə, Vətən müharibəsi iştirakçıları bu gün dövlətimiz tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunublar. Qalib ordunun qalib nümayəndələri kimi bu gün başımız uca, üzümüz ağdır.

Digər müsahibim Vətən müharibəsi iştirakçısı ***Nurlan Hüseynov***dur. Nurlan deyir ki, illərdir, həmin günü gözləyirdik. Bu təkcə mənə aid deyil. Bütün yoldaşlarım döyüşə yollanmaq üçün səbirsizlənirdi, əmr gözləyirdik. Yağı tapdağında qalan torpaqlarımızı azad etməkdə iştəyirdik ki, bizim rolumuz olsun. Xüsusi təyinatlı qüvvələr kimi uzun müddət idi ki, iştirak etdiyimiz təlimlərdə bu gün üçün hazırlayırdıq özümüzü. Nəhayət ki, həmin göstəriş gəldi və mən də yoldaşlarımla bərabər, Vətənin harayına yollandım. Tapdaq altında qalan bölgələrimizin işğaldan azad olunması uğrunda əlimizdən gələni etdik. Bu savaş bizdən sonrakı nəsillərə qalmamalı idi. Böyük qürur hissi ilə deyə bilərəm ki, müharibədən sonra Qələbə paradında iştirakımız həyatımızın ən önəmli günü oldu.

Azərbaycan Ordusu bu savaşa hər an hazır idi. İllərlə sülh yolu ilə torpaqlarımızın qaytarılması üçün aparılan danışıqlar nəticə vermir, hətta düşmən öz təxribatlarını daha da genişləndirirdi.

Bu gün xüsusi qeyd etmək istəyirəm ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər günümüzdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı ordumuzun büdcəsinin artmasına və nəticə etibarilə, güclənməsinə şərait yaradıb. Bunun nəticəsində ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib. Hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmaqdadır. Müasir döyüş texnikaları ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələri hazırda yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir. Ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Düşünürəm ki, qələbəmizi şərtləndirən əsas amillərdən biri elə yuxarıda sadaladığım kimi hərb sahəsinə göstərilən diqqət və qayğı oldu.

Müharibədən sonra cənab Prezidentimiz tərəfindən "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif olunmuşam.

*Döyüşə gülərək gedən qəhrəman əsgərlərimiz düşməni qovaraq Vətənimizin ayrılmaz hissəsi olan Qarabağı geri aldılar. Bu mübarizədə şəhidlik onlar üçün ən uca zirvə idi. Məhz bu amalla düşmənin üzərinə gedən əsgərlərimiz nə şəhid olmaqdan, nə də qazi olmaqdan çəkindilər. Onlar üçün bu yol şərəf yolu idi, xalqımızı doğma yurd-yuvasından qovan düşmənə layiqli cavab idi. Müharibə bitdikdən sonra bu torpaqların geri alınmasında əməyi olan qazilərimizi gördükdə onlara qarşı bir başqa hiss, duyğu yaranır insanda. Doğma Vətən torpağını qoruyan, canından, qanından keçməyə hazır olub Vətənin azadlığı uğrunda sağlamlığını itirən qəhrəmanlarımız gələcək nəsillərə bir örnəkdir.*

**✍ Telli MƏMMƏDOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 10 noyabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1487 | 1317 | 170 |
| 2. | Babək rayonu | 3991 | 2497 | 1494 |
| 3. | Ordubad rayonu | 159 | 34 | 125 |
| 4. | Culfa rayonu | 1548 | 1126 | 422 |
| 5. | Kəngərli rayonu | 2996 | 1710 | 1286 |
| 6. | Şahbuz rayonu | 127 | 78 | 49 |
| 7. | Sədərək rayonu | 1061 | 181 | 880 |
| 8. | Naxçıvan şəhəri | 102 | 74 | 28 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **11471** | **7017** | **4454** |

## Naxçıvan karateçiləri dünya birinciliyində uğurlu nəticələr qazanıblar

Türkiyənin İstanbul şəhərində karate üzrə 11-ci Dünya Şotokan Çempionatı keçirilib. 3 kateqoriyada keçirilən nüfuzlu yarışda 30 ölkədən 1076 idmançı iştirak edib. Naxçıvan Karate-do Federasiyasının 3 idmançısı milli komandamızın heyətində ölkəmizi təmsil edib və hər biri mükafatçılar sırasına düşüb:




*Abbaszadə Canər (12-13 yaş) "WKF" 3-cü yer.*

*Bağırov Məhəmməd (14-15 yaş) "Shobu ippon" 2-ci yer.*

*Qasımov Rəşad (18-20 yaş) "Shobu ippon" 3-cü yer.*

Bu yaş qrupunda milli komandanın üzvləri komanda kumite yarışında iştirak etmədiyi üçün R.Qasımov Türkiyə komandalarından birinin tərkibində yarışa qatılaraq 2-ci yeri tutub.

Qeyd edək ki, müxtəlif kateqoriyalarda çıxış edən klub və milli komanda üzvlərinin nəticələrinə əsasən Azərbaycan karateçiləri, ümumilikdə, 29 medal qazanıb. Mükafatlardan on üçü qızıl, altısı gümüş, on ədədi isə bürüncdür. İdmançılarımız bu uğuru 8 Noyabr – Zəfər Gününə həsr ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Region Liqasının püşkü atılıb

Futbol üzrə Azərbaycan Region Liqası Naxçıvan Zonasının püşkatma mərasimi keçirilib. Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında keçirilən tədbirdə şəhər və rayon gənclər idman idarələrinin rəisləri və məşqçilər iştirak ediblər.



Cari mövsümdə Region Liqasının muxtar respublika zonasında 8 komanda dairəvi sistem üzrə mübarizə aparacaq. Sonda ən çox xal qazanmış komanda Naxçıvanı Azərbaycan Region Liqasında yarımfinal mərhələsində təmsil edəcək. İlk turda aşağıdakı komandalar üz-üzə gələcək:

*"Babək" (Babək) – "Əlincə" (Culfa)*

*"Sədərək" (Sədərək) – "Arpaçay" (Şərur)*

*"Batabat" (Şahbuz) – "Kəngərli" (Kəngərli)*

*"Dübəndi" (Ordubad) – "Araz-Naxçıvan" (Naxçıvan)*

**✍ Ceyhun MƏMMƏDOV**

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.*

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 27 yoxlama-reyd keçirilmişdir. Bu sahədə 12 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublikamızın təbiətinin qorunması üçün ekoloji-hüquqi maarifləndirici tədbir keçirilmişdir. Maarifləndirmə tədbirlərində ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında məlumatlar verilmişdir.

Ay ərzində Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 25-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Monitorinqlər zamanı bir sıra çatışmazlıqlar da qeydə alınmışdır. Həmin çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti üzrə məlumat verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında hesabat ayında Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 7 su nümunəsi, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən isə 4 su nümunəsi olmaqla, ümumilikdə, 18 su nümunəsi götürülmüş və 180 analiz aparılmışdır. Aparılan analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı hazırlıqlara başlanılmış, ümumilikdə, 8,5 hektar sahədə texnika vasitəsilə torpaq hazırlığı işləri aparılmış, çalalar qazılmış, əraziyə üzvi gübrə gətirilmişdir. Həmçinin ötən illərdə salınmış meyvə bağlarında bərpa işləri görülmüş, 27 həmişəyaşıl, 1100 meşə və meyvə tingi əkilmişdir. İlin əvvəlindən təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq 876 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir.

Qurumuş ağacların kəsilərək muxtar respublika ərazisində yerləşən hərbi hissələrə verilməsi davam etdirilmişdir. Qış mövsümündə fauna ehtiyatlarının qaba yemə və daşduza olan tələbatının ödənilməsi məqsədilə, ümumilikdə, 500 kipə yaxın qaba yem, 8 tondan artıq daşduz ehtiyatı yaradılmışdır. Toplanmış qaba yem və daşduzun sahələrə daşınması işləri ay ərzində davam etdirilmişdir. Bu məqsədlə Şahbuz Dövlət Təbiət Qoruğunun və Arpaçay Dövlət Təbiət Yasaqlığının ərazisində biotexniki tədbirlərin keçiriləcəyi sahələrə 200 kipə yaxın qaba yem və 3000 kiloqrama yaxın daşduz yerləşdirilmişdir. Eyni zamanda 600 kiloqram daşduz ərazilərə dağıdılmışdır.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir.

Ali Məclis Sədrinin müvafiq Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə hamiliyə verilmiş Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya və Geologiya mühəndisliyi ixtisaslarının tələbələrinə Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin Əlincəçay vadisində səpinti qızıl axtarışı işlərinin aparılması haqqında geniş məlumat verildikdən sonra iştirakçılar Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin Culfa şəhərində yerləşən muzey fondu, laboratoriya və texniki avadanlıqlarla tanış olmuşlar.

Yaylaq mövsümü dövründə Şahbuz rayonunun Gömür və Kükü dağı istiqamətində məskunlaşmış fermerlərlə fərdi maarifləndirici görüşlər keçirilmiş və yaylaqdan istifadə qaydaları, məişət tullantılarının idarə olunması haqqında söhbətlər aparılmışdır.

Təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə təyin edilmiş ekoloji ödənişlərin icrasına nəzarət həyata keçirilir, ödənişlərin dövlət büdcəsinə köçürülməsi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Naxçıvan şəhəri, Şahtaxtinski küçəsi, döngə 5, ev 5-də yaşayan Haqverdiyev Tapdıq Abbas oğlunun adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 940